kaspi.-2017.-29-31 iyul.-S.24.

# Bir bardaq şərbət

*hekayə*



Ambrose Bierce

Hekayə əsas qəhrəmanın ölümü ilə başlayır. Silas Dimer 1863-cü il, iyulun 16-da öldü. O öləndən 2 gün sonra dəfn edildi. Silas Dimeri kənddə hamı tanıyırdı, ona görə də onun dəfnində qəzetlərin də yazdığı kimi çox adam iştirak etmişdi. Həmin dövrdə bir adət vardı. Tabutu qəbirə qoymazdan qabaq açırdılar, bütün dostlar, qohumlar, tanışlar son dəfə mərhuma baxıb onunla vidalaşırdılar. Bu dəfə də belə oldu. Hamı onunla son dəfə vidalaşandan sonra Silas Dimerin tabutunu qəbirə qoydular. Qəbiristanlıqdan qayıdanda bəzi adamların gözləri hələ də nəm idi. İndi hamıya bir şey məlum idi, Silas Dimer doğrudan da, ölmüşdü, yeni heç vaxt bu dünyaya qayıtmayacaqdı.



Bir şeyi deməyi unutmuşam ki, Silas Dimer Hilbruk kəndində öldü və onun dəfni də burda oldu. O, bu kənddə 31 il yaşamışdı. Bu kənddə ticarətlə məşğul olmuşdu, bəzi yerlərdə onun kimilərə "tacir" deyirlər. Yəni onun dükanı vardı. Hamı onu vicdanlı insan kimi tanıyırdı bəlkə də buna görə kənd camaatının hörmətini qazanmışdı. Onun haqqında danışarkən bir şeyi mütləq qeyd etmək lazımdır, Silas Dimer öz işini çox sevirdi.

Öldüyü günə qədər bazar günlərindən başqa elə bir gün olmazdı ki, Silas hər gün dükanında olmasın. "Əsrin dörddə biri qədər o bu kənddə dükan sahibi olmuşdu. Bu illər ərzində sağlamlığı da ona piştaxta arxasında durmağa imkan vermişdi.

Kənddə belə danışırlar ki, bir dəfə məhkəmənin vəkili onu şahid kimi məhkəməyə dəvət edibmiş, amma Silas işini atıb məhkəmədə iştirak etməyib.

Silas, onun arvadı və iki yekə qızları dükanın ikinci mərtəbəsindəki otaqlarda qalırdılar. Ancaq kənddə hamıya məlum idi ki, Silas həmişə dükanındakı çarpayıdan başqa heç yerdə yatmayıb. Elə bir gün həmin çarpayıda da bu dünyaya gözlərini yummuşdu. Səhər açılanda, başqa vaxtlar dükanın pəncərələrini açdığı vaxtda bu dünyaya "əlvida" demişdi.

Bəli, Silas Dimer belə yaşamışdı öz həyatını. Kəndin zarafatcıl kişilərindən biri deyirdi ki, nəhayət, Silos Dimer " məzuniyyətə çıxdı".

İndi isə kəndin başqa sakinlərindən söz açım. Kənddə ən hörmətli şəxslərdən biri bankir Alvan Qride idi. Onun qəşəng evi və faytonu vardı.

Bir yay axşamında o darvazanı açıb həyətinə girir, çınqıl döşənmiş cığırla evinə tərəf addımlayır. Evin qapısına çatıb qapını açır, bu vaxt arvadını görür. Arvadını görəndə o nəyisə yadına salıb deyir:

- Ah, lənət şeytana! Bəs hanı bir bardaq şərbət?

Arvadı təəccüblə onun üzünə baxır:

- Hansı bardağı deyirsən, Alvan?

- Ağcaqayın şərbətini deyirəm. Dəqiq bilirəm ki, qapını açmaq istəyəndə yerə qoydum ki, qapını rahat aça bilim. Nə oldu, göyə uçdu bardaq?

- Alvan, dəqiq bilirsən ki, bir bardaq şərbət almışdın?

- Əzizim, yeni o qədər ağlımı itirdim ki, əlimdə nə gətirdiyimi unudum? Dimerin dükanının yanında keçəndə içəri girdim, dedim ki, çəlləkdən bir bardaq şərbət versin mənə. Sonra isə mən...

Alvan cümləsini bitirmədi, nə fikirləşdisə qonaq otağın qapısını açıb girdi, kresloda oturdu. Onun əl-ayağı əsirdi. Çünki onun yadına düşmüşdü ki, Silas Dimer 3 həftə bundan qabaq ölüb.

Xanım Qride də ərinin başı üstə durub ona təəccüblə, narahatlıqla baxırdı.

- Allah xətrinə, mənə de görüm sənə nə olub?

Araya sükut çökdü, bu sükutu yalnız saatın çıqqıltısı pozurdu. Adama elə gəlirdi ki, saat başqa vaxtlarla müqayisədə indi gec-gec çıqqıldayır.

- Ceyn, mən dəli olmuşam, məsələ budur! - Alvan dedi. - Sən gərək məndə dəlilik simptomlarını çoxdan müşahidə edəydin. Mənə elə gəlir ki, işdən qayıdanda Dimerin dükanının yanından keçdim. Dükan açıq idi, içəridə işıq yanırdı. Əlbəttə, onun dükanı heç vaxt açıq ola bilməzdi. Hə, mən dükana girdim, Silas Dimer piştaxta arxasındaydı. Ceyn, inan mənə, mən indi səni necə görürəmsə onu da eləcə gördüm. Dükanın yanından keçəndə yadıma düşdü ki, sən ağcaqayın şərbəti almağı tapşırmışdın. Dükana girib şərbət aldım, vəssalam! Mən 3 həftə bundan qabaq ölüb indi yerin altında olan Silasdan bir bardaq şərbət aldım. İki litr.

Amma dəqiq yadımdadır ki, bardağı əlimə özü verdi. Ancaq o mənə heç nə demədi. Bəlkə də deyib, ancaq xatırlaya bilmirəm. İnan mənə, onu gördüm. Mən onunla söhbət etdim. O 3 həftə qabaq ölüb. Deməli, mən dəli oluram. Ceyn, mən dəli oluram, sən bunu bilsən də mənə deməmisən.

Qadın bir az fikrə gedib dedi:

- Alvan, bu vaxtacan mən heç vaxt səndə dəlilik əlaməti hiss etməmişəm. İnan mənə, düz deyirəm. Sənin danışdıqların yalnız illüziya ola bilər. Yoxsa bu necə ola bilər axı? Sən bankda həddindən çox işləyirsən, bəlkə hamısı yorğunluq əlamətidir? Gərək bu axşam direktorların iclasına getməyəydin. Çox yorğun idin işdən gələndə, deyərdin ki, xəstə olduğun üçün getmədin iclasa.

Alvan heç nə deməyib fikrə getdi.

Elə bu vaxt onun balaca qızı otağa daxil oldu. O, gecə köynəyindəydi. O, özünü atasının qucağına atıb dedi:

- Ata, sən mənim otağıma girib məni öpməyi unutmusan. Sən darvazanı açıb həyətə girəndə Eddi ilə pəncərədən sənə baxırdıq. Eddi deyir ki, şərbət qurtarandan sonra o bardağı özünə götürə bilər?

Balaca qız belə deyəndə Alvanın bütün vücudu titrədi, çünki çox yaxşı bilirdi ki, qızı onun arvadıyla olan söhbətini eşitməyib.

Silas Dimerin dükanı və evi yerləşən binanın başqa sahibi vardı. Silas ölən gündən dükanı bağlamışdı. Dükanda olan bütün mallar başqa dükana verilmişdi. Silasın iki qızı və arvadı da köçüb başqa şəhərə getmişdilər.

Alvan Qridenin macərasını eşidən kimi kənd sakinləri Silasın dükanına axışdılar, inanırdılar ki, onun ruhu orda zühur edib. Bəziləri buna inanmasa da çoxları inanırdı. Cavan uşaqlar binaya daş atdılar. Bəzi dələduz uşaqlar isə pəncərəyə yaxınlaşıb kibrit yandırdılar, içəri baxdılar. İçəri baxanlar guya içəridə ruh görüb qışqırdılar və var güclərini toplayıb qaçdılar. Qorxmaz cavanlar isə içəri boylananda gördülər ki, içəridə sarı işıq var - küçənin işıq dirəklərindən düşür ora.

Yalnız balaca uşaqlar binaya daş atırdılar. O birilər isə sanki nəfəs almağı da unutmuşdular. Onlar küçənin o biri tərəfində dayanıb dükana baxırdılar. Nəhayət, işıq lap gur olanda gördülər ki, Silas Dimer piştaxta arxasında dayanıb. Çox açıq-aydın görünür!

İnsanlar necə dəhşətə gəldilərsə tez ordan uşaqlaşmağa çalışdılar. Bəziləri arxaya baxmadan qaçdı. Bəziləri hərdən çiyni üstdən dönüb geri baxırdı. Amma bəzi adamlar heç yana getmədilər. Çünki omlar içəridə mühasibat kitablarından başqa heç nə görmədilər.

Ancaq 3 nəfər içəri girməyə cürət etdi. Az sonra onlar bir-birini itələyərək çölə qaçdılar. Onlar qaça-qaça qışqırırdılar.

O biri gün kənd milisi dükana girdi. Dükanda mühasibat kitabında Silas Dimerin öz xətti ilə son alış-veriş tarixi yazılmışdı. 16 iyul

Alvana bir bardaq şərbət satmağı haqda haqq-hesab yox idi.

**İngiliscədən tərcümə:**
**Sevil Gültən**